Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası Rəyasət
Heyətinin 29.01.2021-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir.
Rəyasət Heyətinin 20.05.2022-ci il tarixli
qərarına əsasən 01.09.2022-ci il
tarixində ləğv edilir.

**Xüsusi karantin rejimi dövründə dissertasiya şuralarının nəzdində fəaliyyət göstərən elmi seminarlarda müzakirələrin təşkili və keçirilməsinə dair**

# TƏLƏBLƏR

## 1. Ümumi müddəalar

1.1. Bu Tələblər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) profilaktikasına dair metodiki göstərişlər" əsasında hazırlanmışdır və xüsusi karantin rejimi dövründə koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik tədbirlərin həyata keçirilməsi təmin edilməklə dissertasiya şuralarının nəzdində fəaliyyət göstərən elmi seminarlarda müzakirələrin (bundan sonra – müzakirələr) təşkili və keçirilməsinə dair tələbləri müəyyən edir.

1.2. Xüsusi karantin rejimi dövründə müzakirələr bu Tələblərə riayət olunmaqla Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – Komissiya) Rəyasət Heyəti tərəfindən təsdiq edilmiş "Dissertasiya şuraları nəzdində elmi seminarın fəaliyyətinin təşkili Qaydası" ilə nəzərdə tutulan müddəalar əsasında həyata keçirilir.

1.3. Xüsusi karantin rejimi dövründə iddiaçılar müzakirənin bu Tələblərlə nəzərdə tutulan qaydada təşkil edilməsi məqsədilə dissertasiya şurasına yazılı müraciət etməlidirlər.

1.4. Xüsusi karantin rejimi dövründə müzakirələrin təşkili və keçirilməsi ilə bağlı tələb olunan xərclər dissertasiya şurasının fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi hesabına təmin edilir.

## 2. Müzakirələrin təşkili və keçirilməsinə dair tələblər

2.1. Müzakirə elmi seminar üzvlərinin və digər şəxslərin qismən əyani iştirakları, eyni zamanda distant (məsafədən) qoşulmaları təmin olunmaqla təşkil edilir.

2.2. Müzakirədə elmi seminar üzvlərinin və digər şəxslərin əyani iştirakları zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

2.2.1. elmi seminarda iştirak edənlərin yaşı 65-dən yuxarı olmamalı;

2.2.2. elmi seminarın keçiriləcəyi otaqda (zalda) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən xüsusi karantin rejimi dövründə insanların bir yerə toplaşmaqla bağlı müəyyən edilən say məhdudiyyəti gözlənilməli;

2.2.3. müzakirə zamanı elmi seminarın elmi katibinin, iddiaçının, videoçəkiliş aparan şəxsin müzakirə keçiriləcək otaqda (zalda) əyani iştirakları mütləq təmin edilməli;

2.2.4. müzakirədən iki gün əvvəl otaq (zal) dezinfeksiya edilməli və müzakirə təyin olunan günədək həmin otağa (zala) giriş qadağan edilməli;

2.2.5. müzakirə keçiriləcək otağın (zalın) girişində, dəhlizdə əl dezinfektantları üçün dispenserlər quraşdırılmalı;

2.2.6. müzakirədən öncə və gedişatı ərzində otaq (zal) havalandırılmalı;

2.2.7. müzakirədə iştirak edən hər bir şəxs otağa (zala) daxil olduğu andan mütləq şəkildə əllərini dezinfeksiyaedici məhlulla təmizləməli və termometriya icra edilməli;

2.2.8. otaq (zal) tibbi maskalarla təchiz edilməli;

2.2.9. müzakirədə iştirak edən hər bir şəxsin otağa (zala) daxil olduğu andan tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) mütləq istifadə etməsi tələb edilməli;

2.2.10. otaqda (zalda) fərdi qoruyucu vasitələrinin atılması üçün müvafiq tullantı qabları yerləşdirilməli;

2.2.11. müzakirədə iştirak edən şəxslərin yaxın təmasına (əllə görüşmə və digər yaxın təmas) yol verilməməli;

2.2.12. dəftərxana ləvazimatları (qələm, karandaş və s.) ortaq istifadə edilməməli;

2.2.13. soyuqdəymə və qripə bənzər simptomlar müşahidə edilən şəxslərin müzakirədə əyani iştiraklarına icazə verilməməli;

2.2.14. müzakirədə əyani iştirak edən şəxslər arasında sosial məsafə (2 m) qorunmalı;

2.2.15. müzakirə zamanı iddiaçı və elmi seminarın hər bir üzvü veb-kamera ilə təchiz olunmuş kompüterlə təmin edilməli və müzakirənin sonuna qədər kameralar söndürülməməli.

2.3. Bu Tələblərin 2.2-ci bəndində göstərilən şərtlər gözlənilməklə elmi seminarın sədri, digər üzvləri və müzakirənin distant (məsafədən) təşkili ilə bağlı texniki məsələlərin həllinə məsul olan şəxs müzakirə keçiriləcək otaqda (zalda) əyani iştirak edə bilər.

2.4. Müzakirəyə elmi seminar üzvlərinin və digər şəxslərin distant (məsafədən) qoşulmaları zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

2.4.1. “Dissertasiya şuraları nəzdində elmi seminarın fəaliyyətinin təşkili Qaydası”nın 5-ci bəndinə müvafiq olaraq elmi seminarın iclasının səlahiyyətli sayılması üçün müzakirədə əyani formada iştirak etməyən zəruri sayda elmi seminar üzvlərinin, rəyçilərin, habelə müdafiədə

iştirak etmək istəyini bildirən elmi rəhbərin (elmi məsləhətçinin) iclasa distant (məsafədən) qoşulmaları təmin edilməli;

2.4.2. elmi seminarın üzvü olmayan digər şəxslərin prosesi distant (məsafədən) formada izləməsinə və sualların verilməsinə şərait yaradılmalı.

2.5. Elmi seminarın iclası zamanı müzakirələr elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin dəstəklədiyi müvafiq elektron platformaların tətbiqi ilə (Microsoft Teams, Zoom Meetings, Google Meet və s.) keçirilir və müzakirənin gedişatının videoqeydi aparılır.

2.6. Müzakirənin keçiriləcəyi elektron platformanın istinad mənbəyi (linki) elmi katib tərəfindən müzakirəyə azı 2 (iki) gün qalmış iddiaçının, elmi seminar üzvlərinin, rəyçilərin və elmi rəhbərin (elmi məsləhətçinin) elektron ünvanına göndərilir.

2.7. Elmi seminarın üzvü olmayan digər şəxslərin prosesi distant (məsafədən) formada izləməsini və sualların verilməsini təmin etmək məqsədilə elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəsmi internet saytında müzakirənin keçiriləcəyi elektron platformanın istinad mənbəyi (linki) yerləşdirilir.

2.8. Müzakirə zamanı iclasda distant (məsafədən) iştirak edən üzvlərin iştirakını təsdiq etmək üçün “İştiraketmə vərəqi”ndə “Dissertasiya şuraları nəzdində elmi seminarın fəaliyyətinin təşkili Qaydası”na Əlavə 2.1) “İclasda iştirakı (imza)” xanasında elmi katib tərəfindən “Distant” sözü yazılır.

2.9. Müzakirə zamanı iclasa distant (məsafədən) qoşulan üzvlərdən hər hansı biri ilə audio-vizual əlaqənin kəsilməsi və ya ciddi texniki nasazlığın yaranması səbəbindən həmin üzvün öz fikrini elmi seminarın diqqətinə çatdırması mümkün olmadıqda, nasazlıq aradan qaldırılana kimi texniki fasilə elan edilə bilər.

2.10. Müzakirənin videoçəkilişi və bu Tələblərin 2.5-ci bəndi ilə nəzərdə tutulan videoqeydi elektron daşıyıcıda iddiaçının attestasiya sənədlərinə əlavə edilir.

## 3. Xüsusi karantin rejimi dövründə müzakirələrin sonunda səsvermənin keçirilməsi

3.1. Səsvermədə iştirak edən elmi seminar üzvləri tam tərkibdə müzakirədə əyani iştirak etdikləri təqdirdə müzakirənin sonunda dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair gizli səsvermə keçirilir.

3.2. Səsvermədə iştirak edən elmi seminar üzvlərinin ən azı biri müzakirəyə distant (məsafədən) qoşulduqda müzakirənin sonunda dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair açıq səsvermə keçirilir.

3.3. Açıq səsvermə əsasında səsvermədə iştirak edən seminar üzvlərinin azı üçdə ikisi iddiaçının fəlsəfə doktoru və ya elmlər doktoru dissertasiyasının müdafiəyə buraxılmasının lehinə səs verdikdə səsvermənin nəticəsi müsbət hesab edilir.

3.4. Müzakirənin sonunda açıq səsvermə keçirildiyi təqdirdə hesablama komissiyası yaradılmır, səsvermənin nəticəsi seminarın elmi katibi tərəfindən elan olunur və elmi seminarın protokoluna daxil edilir.